*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2024*
*Səh. 347-351*
https://doi.org/10.62837/2024.7.347

**İRADƏ İSRAFIL QIZI KƏRIMOVA**
*Bakı Dövlət Universiteti,*
*filologiya üzrə fəlsəfə doktoru*

# MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN QRAMMATİKASI (ORTA MƏKTƏB DƏRSLİKLƏRİNDƏ QRAMMATİK ARAŞDIRMALAR)

**Açar sözlər:** Müasir Azərbaycan dili, qrammatika, orta məktəb dərslikləri, ədəbi dil qrammatikası, qrammatik araşdırmalar.
**Ключевые слова:** Современный Азербайджанский язык, грамматика, учебники средней школы, грамматика литературного языка, грамматические исследования.
**Key words:** Modern Azerbaijan language, grammer, high school textbooks, literary language grammar, grammar investigations.

***Məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır***
**Ümummilli Lider Heydər Əliyev**

Azərbaycan mədəniyyəti, tarixi, dünyagörüşü dilin formalaşmasında böyük rol oynayır. Dilimizin qrammatikası ilk baxışda çətin görünə bilər, lakin bu gözəl dilə sevgi, fədakarlıq, təcrübə, böyük maraq və məsuliyyətlə yanaşaraq, onun bütün incəliklərinə ən yüksək səviyyədə yiyələnmək mümkündür və vacibdir. Qrammatika dilin bütün sahələrini ələ alıb, araşdıran elmin adıdır. Qrammatika bizə nitqimizi düzgün qurmaq, fikrimizi səlis və aydın ifadə edə bilmək, sözləri cümlədə necə dəyişdirmək və işlətmək, onları bir-biri ilə necə əlaqələndirmək, hansı ardıcıllıqla düzmək və s. qayda-qanunları öyrədir. Azərbaycan dilinin qrammatikası fonetika, leksikologiya, söz yaradıcılığı, morfologiya, sintaksis, nitq mədəniyyəti üslubiyyat və s. kimi bölmələrdən ibarətdir. Qrammatik səhvlər dil vahidinin strukturunda olan səhvlərdir: Sözlər, ifadələr və ya cümlələr, söz yaradıcılığı, morfoloji, sintaktik və sairə hər hansı qrammatik normanın pozulması qrammatik səhvlər sırasına daxildir. Məktəblilərin zehnində belə səhvlərin formalaşması isə kitab müəlliflərinin, nəşriyyat işçilərinin və müəllimərin məsuliyyətsizliyinin və səhlənkarlıgının nəticəsidir. Respublikamızın Prezidenti Cənab İlham Əliyevin dilimiz haqqında Sərəncamları bizə nitqimizi düzgün qurmaq, fikrimizi səlis və aydın ifadə edə bilmək, sözləri cümlədə necə dəyişdirmək və işlətmək, onları bir-biri ilə necə əlaqələndirmək, hansı ardıcıllıqla düzmək və s. qayda-qanunları düzgün mənimsəməkdə yol göstərir. 9 aprel 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nda ana dilimizin dövlət dili kimi inkişafı, ədəbi dil normalarına əməl olunması üçün ciddi vəzifələr müəyyənləşdirilib. Bu vəzifələri sadəcə dilçi alimlər, ziyalılar və yaşca böyük olanlar həyata

keçirməməlidir. Bu, hamının, hər bir azərbaycanlının müqəddoəs borcu olmalıdır. Doğma ana dilimizin əsas problemlərindən biri də Azərbaycan ədəbi dilinin normalarının gözlənilməsi ilə bağlı məsələlərdir(1,187). Azərbaycanın orta ümumtəhsil məktəblərinin dərsliklərində mövcud olan qrammatik səhvər, ədəbi dil normalarının pozulması problemi uzun illərdir ki, müxtəlif müzakirələrə səbəb olur, lakin hələ də həllini tapmayan çox ciddi məsələlərdən biridir. Bu problemlər müəllim və şagirdlərlə yanaşı, valideynləri də ciddi şəkildə narahat edir. Valideynlərin iddiasına görə, dərsliklərdə buraxılan ciddi səhvlər, mürəkkəb, anlaşılmaz ifadələr, cümlələr və s. səhvlərə görə Müasir dövrdə hətta ibtidai sinif şagirdlərinin də repetitor yanına getmələrinin səbəbi də bu nöqsanlardan biridir. "Dərsliklərin dilində fonetik, leksik və qrammatik normaların pozulması hallarına tez-tez rast gəlmək olur". Bu sözləri Azərbaycan Milli Elmlər Akademiyası Dilçilik İnstitutunun "Orta məktəb dərsliklərinin dili: norma və üslub problemləri" mövzusunda keçirilən konfransda çıxışı zamanı Möhsün Nağısoylu demişdi. İnstitutun direktor vəzifəsini icra edən Möhsün Nağısoylu bildirmişdi ki, durğu işarələrinin bəzi hallarda buraxılması, söz sırasının pozulması, sözlərin yerində düzgün işlədilməməsi, morfoloji əlamət və sintaktik vasitələrdən düzgün istifadə olunmaması, fikir mücərrədliyi və s. dərsliyin dilində rast gəlinən əsas norma pozuntularıdır (5,2).

Azərbaycan Milli Elmlər Akademiyası Dilçilik İnstitutu monitorinq şöbəsinin aparıcı elmi işçisi Rasim Heydərov bildirib ki, orta məktəb dərsliklərinin dilində fonetik, leksik və qrammatik normaların pozulması hallarına tez-tez rast gəlmək olur. Son illərdə dərsliklərdə qrammatik səhvlərin aradan qaldırılması üçün işlər görülsə də, problemlər hələ də qalmaqdadır. O hesab edir ki, dərsliklər qrammatik baxımdan çox işlənilməlidir: "Texniki fənlərin dərsliklərində problemlər daha çoxdur. Bu da tərcümənin yaratdığı problemdir. Ümid edirik ki, gələcək illərdə bu problem həll olunacaq (5,2). Təhsil İnstitutunun direktor müavini Ənvər Abbasovun qeyd etdiyi kimi, dərsliklər ən zəruri bilikləri, onların əsasında gələcək həyat üçün vacib olan səriştələrin formalaşmasına imkan yaradan fəaliyyət sistemini təqdim etməklə şagirdləri yaradıcı tətbiqetməyə istiqamətləndirir. Dərs keçən və ya dərs dinləyən hər kəsin təfəkküründə dərslik fenomeni barədə düşüncələr onları daha tələbkar olmağa, bu barədə daim axtarışlar aparmağa sövq etmişdir. Tarixdən məlum olduğu kimi, məktəbdarlıqla məşğul olanlar bu ehtiyac və tələbatları ödəmək üçün müxtəlif zamanlarda zəruri hesab etdikləri resurslara əsaslanmışlar. Öyrəndikləri əsasında yeni biliklərin yaradılmasına təşviq edir. Kreativliyə doğru addımlardan ibarət olan bu yanaşma, heç şübhəsiz, intellektual dərsliklərə aparan bir yoldur. Azərbaycan dili dərsliklərinin ümumi sistemində ən zəruri elmi-nəzəri anlayışlar hesabına onun linqvistik əsaslarını normallaşdırmaq, həyati bacarıqlara söykənən səriştələrə geniş yer ayırmaqla praktik əhəmiyyətliliyini artıqmaq onun gələcək perspektivlərinin mühüm parametrlərini təşkil edir (3,5).Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov "525"ə açıqlamasında parlamentdə bununla bağlı müzakirlər aparıldığını qeyd edib. Millət vəkili təsdiqləyib ki, dərsliklərdəki bəzi riyazi

məsələləri hətta valideynlər də həll edə bilmirlər: "Aydın məsələdir ki, dərsliklərdəki bir çox problemlər hələ də aktual olaraq qalır. Bu məsələdə daha diqqətli olmalıyıq. Dərsliklərin yazılmasına sahələr üzrə ən bilikli və bacarıqlı kadrlar cəlb olunmalıdır. Kitabların redaktəsinə və korrektəsinə ciddi ehtiyac var"(4,2). İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bioloji, humanitar və ictimai elmlər şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Dürdanə Rəhimzadə açıqlamasında "Azərbaycan dili" dərslikləri ilə bağlı nöqsanlardan söz açıb: "Azərbaycan dili" dərsliklərində dilimizin tarixi, quruluşunun spesifikası kimi məsələlər hər yaş kateqoriyasının qavrayacağı formada hazırlanmalıdır. "Azərbaycan dili" kitablarında oxu materiallarının çoxu tərcümə olunmuş əsərlərdir. Dərsliklərdə dilimizin tarixi, quruluşunun spesifikası, xarakteri, səs tərkibinin özəlliyi, qrammatik xarakteristikası kimi dili hiss etməyə istiqamətlənmiş məsələlər hər yaş kateqoriyasının qavrayış səviyyəsinə uyğun olaraq təqdim edilməlidir. Amma nəinki bu məsələlərə, heç sırf qrammatikanın özülünü təşkil edən qaydalara belə diqqət yetirilmir. Yalnız mətn üzərində bəzi qrammatik kateqoriyaların müəyyən edilməsi ilə kifayətlənirlər. Qrammatik materialın sistemli şəkildə ardıcıl izahını dərsliklərimizdə görmürük. Buna görə də şagirdlə bərabər, onun valideyninin də bu materialı oxuya biləcəyi başqa bir mənbəyə ehtiyacı yaranır. Beləliklə, hamı yönəlir müxtəlif hazırlıq kurslarının və DİM-in qrammatik izahatı əhatə edən kitablarına. Bildiyimə görə, digər fənlərə aid dərsliklərdə də ciddi problemlər var. Düşünürəm ki, bu məsələdə orta məktəblərdə dərs deyən müəllimlərin fikir və iradları mütləq nəzərə alınmalıdır”(2,2). Təhsil eksperti Kamran Əsədovun sözlərinə görə, hazırda təhsil sistemində istifadə olunan dərsliklərin əksəriyyəti strateji məqsədlərə adekvat deyil: "Dərsliklərin məqsədi məktəblilərin müasir standartlara uyğun bilik, bacarıq və vərdişlərə yiyələnməsinə yardımçı olmaq, onları demokratik düşüncəli vətəndaşlar kimi yetişdirməkdir. Amma real vəziyyətə baxsaq, görərik ki, dərsliklər bu gözləntiləri doğrultmur. Vacib bir məqamı qeyd edim ki, Dərsliklər arasında daha çox problem tarix, ana dili və xarici dil kitablarındadır. Bəzən elə səhvlər olur ki, müəllifin bir səhvi üzündən bütün şagirdlər o səhvi düz bilərək mənimsəyirlər. (2,2) Orta məktəb dərslikləri ədəbi dilin, şagirdlərin nitq mədəniyyətinin, onların dünya görüşünün formalaşmasında mühüm rol oynayır. Buna görə də dərsliklər elmi üslubda, şagirdlərin anlaya və qavraya biləcəkləri dildə nöqsansız yazılıb, nöqsansız nəşr olunub şagirdlərin və müəllimlərin ixtiyarına verimәlidir. Dərsliklərdə öz əksini napan nöqsanları isə müəllimlər, imkan daxilində aradan qaldırmağa çalışmalıdırlar ki, həmin səhvlər şagirdlərin zehnində formalaşmasın.

## Ədəbiyyat

1.Azəbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı” haqqında 23 may 2012-ci il Sərəncamı.

Azərbaycan Respublikası Prezidentinin Fərmanlari və Sərəncamlari. səh.187, Bakı, 2013.
2.Kamran Əsədov.Dərslikləri heç biz özümüz başa düşmürük,o ki qaldı, uşaqlar.Modern.az. 24.01.2024.
3.Ənvər Abbasov. Azərbaycan dili dərsliklərinə konseptual yanaşmalar.03 İyul 2020.
4.Keyfiyyətsiz dərsliklər, savadsız məzunlar. “525-ci”qəzet, 30.05.23.
5. Orta məktəb dərsliklərinin dili ilə bağlı müzakirələr aparılıb. Aktual.az. Trend. 01 Aprel 2016.

**Xülasə**

**MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN QRAMMATİKASI (ORTA MƏKTƏB DƏRSLİKLƏRİNDƏ QRAMMATİK ARAŞDIRMALAR)**

**İradə İsrafil qızı Kərimova**

Məqalədə Azərbaycan dilinin qrammatikası haqqında məlumat verilir. Orta məktəb dərsliklərindəki qrammatik araşdırmalar və problemlər haqqında mülahizələr araşdırılır. Bu qrammatik araşdırmalaran, mülahizələrdən sitatlar verilir. Ulu Öndərimiz Heydər Əliyevin məktəb müəllimləri haqqında dəyərli aforizmi məqalədə öz əksini tapmışdır. Ölkə başçısı Cənab İlham Əliyevin 9 aprel 2013-cü il Fərmanından sitat verilir. Araşdırılır ki, orta məktəb dərsliklərində qrammatikanın, ədəbi dil normalarının əsas problemlərindən biri qrammatik nöqsanlardır. Dərsliklərdə öz əksini tapan həmin qrammatik səhvlərdir. Göstərilir ki, qrammatik səhvlər dil vahidinin strukturunda olan səhvlərdir. Sözlər, ifadələr və ya cümlələr, söz yaradıcılığı, morfoloji, sintaktik və sairə hər hansı qrammatik normanın pozulması qrammatik səhvlər sırasına daxildir. Məqalədə ümumtəhsil məktəblərinin dərsliklərindəki qammatik araşdirmalardan da sitatlar verilir. Qeyd edilir ki, orta məktəb dərslikləri ədəbi dilin, şagirdlərin nitq mədəniyyətinin, onların dünya görüşünün formalaşmasında mühüm rol oynayır. Araşdırılır ki, məktəblilərin zehnində belə səhvlərin formalaşması dərslik müəlliflərinin, nəşriyyat, poliqrafiya işçilərinin və orta məktəb müəllimərin məsuliyyətsizliyinin nəticəsidir. Müasir dövrdə hətta ibtidai sinif şagirdlərinin də repetitor yanına getmələrinin səbəbi də bu nöqsanlardan biridir.

**Резюме**

**ГРАММАТИКА СОВРЕМЕННОГО АЗЕРБАЙДЖАНСКОГО ЛИТЕРАТУРНОГО ЯЗЫКА (ГРАММАТИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В УЧЕБНИКАХ СРЕДНЕЙ ШКОЛЫ**

**Керимова Ирада Исрафил кызы**

В статье представлены сведения о грамматике современного азербайджанского литературного языка. Рассматриваются грамматические исследования и рассуждения о проблемах в учебниках средней школы. Приводятся цитаты из грамматических исследований учебников средней школы.В статье отражены высказывания великого лидера Гейдара Алиева о

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2024*
*Səh. 347-351*
школах и школьных учителях. Цитируется указ главы страны господина Ильхама Алиева от 9 апреля 2013 года. Указывается, что одной из основных проблем грамматики и литературных языковых норм в учебниках средней школы являются грамматические ошибки. Именно те грамматические ошибки, которые отражены в учебниках. Отмечается, что грамматические ошибки – это ошибки в структуре языковой единицы. К числу грамматических ошибок относятся нарушения какой-либо грамматической нормы в словах, словосочетаниях или предложениях – словообразовательных, морфологических, синтаксических и т.п. В статье также приводятся цитаты из гамматических исследований в учебниках общеобразовательных школ. Указывается, что учебники средней школы играют важную роль в формировании литературного языка, культуры речи учащихся, их мировоззрения. В результате отмечается, что формирование подобных ошибок в сознании школьников является результатом безответственности авторов учебников, издательств, работников полиграфии и преподавателей средней школы. Это одна из причин, почему ученики начальной школы проводят время с репетиторами.

**Summary**

**GRAMMAR OF MODERN AZERBAIJANI LITERARY LANGUAGE (INVESTIGATION OF GRAMMAR IN SECONDARY SCHOOL TEXTBOOKS)**

**Kerimova İrada İsrafil**

The article presents information about the grammar of the modern Azerbaijani literary language. Grammatical studies and discussions of problems in secondary school textbooks are considered. The quotations are taken from grammar studies in secondary school textbooks. The article reflects the statements of the great leader Heydar Aliyev about schools and school teachers. The order of the head of the country Mr. Ilham Aliyev dated April 9, 2013 is quoted. It is indicated that one of the main problems of grammar and literary language norms in secondary school textbooks are grammatical errors. These are the very grammatical errors that are reflected in textbooks. It is noted that grammatical errors are errors in the structure of the language unit. Violations of any grammatical norm, such as words, phrases or sentences, word creation, morphological, syntactic, etc., are included in the list of grammatical errors. The article also quotes from the gammatic studies in the textbooks of general education schools. It is shown that high school textbooks play an important role in the formation of literary language, students' speech culture, and their world view. As a result, it is noted that the formation of such errors in the minds of schoolchildren is the result of the irresponsibility of textbook authors, publishers, printing workers and secondary school teachers. This is one of the reasons why elementary school students spend time with tutors.

R**əyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Cavanşir Muradov**